## Dərman paltar, avtomobil deyil...

# İnsanların sağlamlığıdır

**Dövlət başçısının bu mesajı təkcə əczaçılara, dərman satışı və ölkəyə gətirilməsi ilə bağlı olan şəxslərə deyil, həmçinin qulluq mövqeyindən sui-istifadə edən məsuliyyətsiz həkimlərədir**



Ölkəmizdə uğurla həyata keçirilən iqtisadi siyasət vətəndaşların güzəranını ildən-ilə yüksəldir. İctimai-siyasi sabitliyin, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülən işlər ölkəmizin beynəlxalq aləmdə nüfuzunu getdikcə gücləndirir və respublikamız dünya miqyasında dinamik inkişaf edən ölkə kimi qəbul edilir. Son illər həyata keçirilən məqsədyönlü islahatlar, bir sıra ümummilli proqramlar, mühüm infrastruktur layihələrin uğurla reallaşdırılması ölkəmizin sosial-iqtisadi mənzərəsini xeyli dərəcədə dəyişmiş, tarazlı inkişaf və davamlı yüksəliş üçün möhkəm əsas yaratmışdır. Bu gün dünyada baş verən münaqişələr, maliyyə böhranları bir çox ölkələrə mənfi təsir etdiyi halda, Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür, iqtisadi tərəqqi müşahidə edilir, insanların sosial rifah halı daha da yüksəlir. Sosial sahədə bütün proqramların vaxtında icra edilməsi dövlət siyasətimizin prioritetidir. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə, biz yeni təşəbbüslər haqqında fikirləşirik.

Son vaxtlaradək Azərbaycanın dərman bazarının əsas problemlərindən biri dərman satışında vahid qiymətin olmaması ilə bağlı idi. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində dərmanların qiymətləri ilə bağlı iradlarından sonra bu istiqamətdə müvafiq tədbirlər görülməyə başlanılıb. Dövlət başçısının göstəriş və tapşırıqlarından sonra dərman preparatlarının qiymətlərinə bütün apteklərdə ciddi nəzarət təşkil edilib, eyni zamanda, qiymətlərin sabit saxlanılması üçün mühüm tədbirlər həyata keçirilir. Çox az bir vaxt keçməsinə baxmayaraq Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi prosesinə start verildi. Artıq bu istiqamətdə uğurlu addımlar atılıb və kifayət qədər müsbət nəticələr əldə edilib. Belə ki, Tarif (qiymət) Şurasının 2015-ci il 30 iyul tarixində keçirilmiş iclasında 256 dərman vasitəsi üzrə qiymətlər təsdiq edilib. Şuranın 2015-ci il 25 avqust tarixində keçirilmiş növbəti iclasında isə daha 801 dərman vasitəsinin qiyməti müəyyənləşdirilib. Ümumilikdə, elan olunmuş 25 təsiredici maddə üzrə 1057 adda dərman vasitəsinin qiymətləri tənzimlənib ki, bunun nəticəsində hazırda satışda olan dərman vasitələrinin qiymətləri ilə müqayisədə 46 faiz dərman vasitəsinin qiyməti 2 dəfədən çox, 24 faiz dərman vasitəsinin qiyməti 3 dəfədən çox ucuzlaşdırılıb, bütövlükdə isə həmin tərkib üzrə satışda olan dərman vasitələrinin 94 faizi üzrə qiymətlər aşağı salınıb.

Bununla da dövlət qeydiyyatına alınmış dərman vasitələrinin təqribən 15 faizinin hazırkı qiymətlərlə müqayisədə əhəmiyyətli dərəcədə aşağı olan satış qiymətləri təsdiqlənib. Böyük sosial əhəmiyyət kəsb edən bu proses bütün dərman vasitələrinin qiymətləri tənzimlənənədək intensiv şəkildə davam etdiriləcək və bu ilin sonunadək əksər dərman vasitələri üzrə qiymətlərin tənzimlənməsi başa çatdırılacaq.

Prezident İlham Əliyev haqlı olaraq bildirmişdir ki, sosial məsələləri müzakirə edərkən, əlbəttə, bu məsələlərin sırf sosial xarakter daşıdığını unutmamalıyıq. Dövlət başçısı burada, xüsusilə də həkimlərin məsuliyyətsizliyinin və bəzi hallarda tamahkarlığının özünü göstərməsini diqqətə çatdırmış, lazım olmayan reseptlərin yazıldığından, hətta, xəstəyə yazılan dərmanın məhz filan yerdəki filan aptekdən alınmalı olduğunu, bunlar azmış kimi reseptlə satılmayan vitaminlərə ehtiyac olmadığı halda resept yazıldığı məsələsinin də Ona məlum olduğunu bildirmiş və qeyd etmişdir ki, bu, böyük bir biznes şəbəkəsidir: “...Bu biznes kimin hesabınadır? Adi insanın hesabına. Adi insan da məcbur olub gedir, ona verilən reseptlə dərman alır. Heç bilmir, nə alır. Sonra dərmanın ona kömək edib-etməməsi ilə əfsuslar olsun ki, heç kim maraqlanmır. Digər tərəfdən, dərmanlar var ki, müxtəlif ölkələrdə istehsal olunur. İnkişaf etmiş ölkələrdə onların qiyməti bahadır. O qədər də inkişaf etməmiş ölkələrdə o qiymət aşağıdır. Gedirlər, ən ucuzunu, ən aşağı keyfiyyətlisini alırlar, gətirirlər, ən baha qiymətə satırlar. Bu, hələ məsələnin az bir hissəsidir. Mən burada bu barədə çox danışmaq istəmirəm. Ancaq bu sahədə çox ciddi pozuntular olub və var. Bu pozuntulara son qoyulmalıdır. Ona görə, indi bütün məsələ təhlil edilib. Artıq bir neçə aydan sonra tətbiq edilməyə başlayacaqdır. Hesab edirəm ki, sentyabr ayından gec olmayaraq bu məsələ artıq yeni müstəviyə qalxmalıdır. Həm şəffaflıq təmin ediləcək, hər bir vətəndaş biləcək ki, hansı dərmanı alır və hansı qiymətə alır. Qiymətlərin yuxarı səviyyəsi müəyyən ediləcək. Heç kim o səviyyədən baha sata bilməyəcək. Dərmanları satanlar da burada öz gəlirlərini götürəcəklər. Onların da normal gəlir səviyyəsi olmalıdır. Ancaq bu səviyyə 100, 200, 300 faiz olmamalıdır. Heç yerdə belə özbaşınalıq yoxdur. Görülən və görüləcək tədbirlər nəticəsində ilin sonuna qədər dərmanların qiymətləri kəskin şəkildə aşağı düşməlidir. İstəyirəm Azərbaycan ictimaiyyəti bunu bilsin. Bu məsələ də daim diqqət mərkəzində olacaq”.

Azərbaycan Prezidenti üçün insan amili əsas faktordur. Ölkə rəhbəri bu məsələdə də dərman alanla birgə satanı da düşündüyünü, dərman satanın və yaxud ölkəyə dərman gətirənin qazanmasının, sahibkarlıqla və ya biznesle məşğul olmasının əleyhinə olmadığını, amma bu qazancın müəyyən hədd çərçivəsini aşmamasının vacibliyini bildirir. Cənab Prezident keyfiyyətsiz dərmanların ölkəyə gətirilməsinin, dərman satışındakı hərc-mərcliyin mənəvi xarakter daşıdığını diqqətə çatdırır və qeyd edir ki, “...Dərman paltar, avtomobil deyil. Dərman insanların həyatıdır, onların sağlamlığıdır. Bu sahədə pozuntulara yol verən insanlar vicdansızdırlar. Başa düşürsünüz nə edirlər? İnsanlar nə etsinlər? Ona resept yazırlar, o da gedir alır. Nəyi alır, hansı keyfiyyətdədir? O, onu qəbul etməlidir, yoxsa, yox? O haradan bilsin? Dərd burasındadır. Ona görə, bax, biz bu sosial və mənəvi pozuntuları aradan götürəcəyik”. Cənab Prezidentin bu mesajı təkcə əczaçılara, dərman satışı və ölkəyə gətirilməsi ilə bağlı olan şəxslərə deyil, həmçinin qulluq mövqeyindən sui-istifadə edən vicdansız həkimlərədir. O həkimlərə ki, apteklərlə əlbir işləyirlər, xəstələrə yazdıqları hər dərman vasitəsinə görə faiz alırlar və nə qədər bahalı dərman yazsam, o qədər qazancım artıq olacaq - deyə düşünürlər.

Dövlət başçısının tapşırığına uyğun olaraq apteklərin fəaliyyətinin təkmilləşdirilməsi, reseptlərin yazılması, dərman vasitələrinin və tibbi ləvazimatların əhaliyə buraxılışı üzərində nəzarət məqsədilə Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən əczaçılıq bazarı iştirakçılarına qarşı aparılan tədbirlər gücləndirilmişdir. Beləliklə, Azərbaycanda aptek şəbəkəsinin fəaliyyəti artıq tamamilə yeni müstəviyə keçir ki, bu da əczaçılıq müəssisələrinin dərmanların qiyməti ilə deyil, xidmət keyfiyyəti ilə rəqabət aparmalarına şərait yaradacaq. Eyni zamanda, Tarif Şurasının qərarı ilə dərman preparatlarının qiymətinin tənzimlənərək aşağı salınması dövlət müəssisələri tərəfindən bu preparatların alınmasına çəkilən xərclərin optimallaşdırılmasına, əldə edilən qənaət hesabına güzəştli kateqoriyadan olan və stasionar müalicə alan əhaliyə pulsuz verilən dərmanların çeşidinin artımına şərait yaradacaqdır. Bu isə öz növbəsində əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin artırılmasına, həmçinin tibb müəssisələrinin aparıcı farmakoloji şirkətlərin istehsal etdiyi daha müasir dərman vasitələri ilə təchiz olunmasına müsbət təsir edəcək.

Şəmsiyyə Əliqızı,
*“İki sahil”*

# Naxçıvanda dəmir yolu nəqliyyatı üzrə xidmət nümunəvi təşkil olunub



Muxtar respublikada ötən ay dəmir yolu nəqliyyatı vasitəsilə ayrı-ayrı tikinti təşkilatlarına 11 min 537 ton yük daşınıb, 10 min 601 sərnişin xidmətdən istifadə edib.

“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətindən AZƏRTAC-a bildirilib ki, daşımaların vaxtında və fasiləsiz təşkili məqsədilə nəqliyyat vasitələrinin texniki sazlığına nəzarət gücləndirilib. Culfa lokomotiv deposunda elektrovozlar 6 dəfə texniki baxışdan keçirilib, bir elektrovoz və manevr teplovozu, həmçinin 31 vaqon cari təmir edilib. Sərnişinlərin rahat gediş-gəlişini təmin etmək üçün vaqonlarda profilaktik tədbirlər həyata keçirilib, istilik sistemi bərpa olunan bir vaqonda əsaslı təmir işləri aparılıb.

Nəqliyyat vasitələri ilə yanaşı, yol infrastrukturunun da hərəkətə davamlılığı təmin edilir. İnfrastruktur İdarəsinin kollektivi mütəmadi olaraq yollara baxış keçirib, tikililər, küvetlər və yol yataqları tullantılardan təmizlənib, uçqun gözlənilən yerlərdə müvafiq təhlükəsizlik tədbirləri görülüb.

Dəmir yolunda stansiya və yolların elektrik, işıqlandırma və işarəvermə sistemlərinin fasiləsiz işi, radiorabitə əlaqəsinin dayanıqlılığı təmin edilib. Bu məqsədlə bütün növ elektrikötürücü hava xətlərində və kontakt şəbəkələrində təmir işləri aparılıb, işıqforlara müntəzəm baxış keçirilib, inzibati, texniki və yardımçı binalarda elektrik xətlərinin vəziyyəti yoxlanılaraq nasazlıqlar aradan qaldırılıb. Həmçinin Ordubad stansiyası idarəetmə mərkəzində əsaslı təmir işləri aparılıb, Ordubad yol sahəsinin inzibati binasının və dəmiryol sərnişin vağzalı binasının tikintisi davam etdirilib. Payız-qış mövsümünə hazırlıqla əlaqədar inzibati və yardımçı binalara baxış keçirilib, Nehrəm və Qarabörk təhlükəsizlik komandalarının binalarının dam örtükləri dəyişdirilib.